

Son illərdə ölkəmizdə idmanın inkişafı üçün yaradılan infrastruktur böyük qələbələrə zamin yaradıb. Paytaxt və bölgələrdə inşa olunan idman kompleksləri gənclərin idmanın müxtəlif növlərinə dərindən yiyələnmələri üçün geniş imkanlar açır. Statistik göstəricilərə əsasən deyə bilərik ki, 2003-2018-ci illərdə Azərbaycan idmançıları beynəlxalq yarışlarda böyük uğurlar əldə edib, Olimpiya Oyunlarında, dünya və Avropa çempionatlarında böyük qələbələr qazanıblar. Azərbaycan həmin illərdə 7 Olimpiya Oyununda - 2004-cü il Afina, 2006-cı il Turin, 2008-ci il Pekin, 2010-cu il Vankuver, 2012-ci il London, 2014-cü il Soçi, 2016-cı il Rio-de-Janeyro Olimpiya oyunlarında iştirak edib. İlk Avropa Oyunlarında Azərbaycan 2-ci yerə, İslam Həmrəyliyi Oyunlarında isə bütün müsəlman ölkələri arasında 1-ci yerə yüksəlib. Rio-de-Janeyro Olimpiya Oyunlarında Azərbaycan medalların sayına görə 14-cü yerdə qərarlaşıb. Məlum olduğu kimi, 2019-cu ilin sonlarından etibarən koronavirus infeksiyasının dünyanı cənginə alması ilə bağlı digər tədbirlərlə yanaşı, idman yarışlarına da məhdudiyyətlər qoyulub.

# İdmanın inkişafı həm də Vətənə olan sədaqətin, fədakarlığın rəhnidir

## *Bunu Qarabağın azadlığı uğrunda gedən savaş da göstərdi*

Dövlət başçısı İlham Əliyevin qeyd etdiyi kimi, idmanın inkişafı və idman nailiyyətləri təkcə ölkəmizi dünyada təbliğ etmir, gücümüzü göstərmir, eyni zamanda o, cəmiyyətdə vətənpərvərlik hissi, torpaq sevgisi kimi duyğuların ilham mənbəyidir: "Bu fikir beynəlxalq səviyyədə qeyd edilir ki, Azərbaycanın tarixi Qələbəsinin əsasında torpaq, Vətən sevgisi dayanır. Bu, qürurvericidir. Bu baxımdan ki, Azərbaycan xalqı tarixinə sahib çıxan xalq olmaqla yanaşı, torpağını sevən, Vəteninin hər daşına, qayasına bağlı olan xalqdır. Tarixi Qələbəmiz bir daha xalqımızın bu keyfiyyətlərini nümayiş etdirdi, məğrurluğumuzu, yenilməzliyimizi təsdiqlədi".

Bu gün Azərbaycanda bütün idman növləri arasında güləş xüsusi yerə malikdir. Güləş milli idman növüdür. İstər sovet, istərsə də müstəqillik dövründə güclü güləşçilərimiz yetişib. Onlar Azərbaycanı hər zaman müxtəlif yarışlarda ləyaqətlə təmsil ediblər. Güləşin ənənələri Azərbaycanda kifayət qədər güclüdür və indi də gənc nəsil bu ənənələri davam etdirir.

Bu yaxınlarda Bolqarıstanda keçirilmiş güləş üzrə Avropa çempionatında gənc güləşçilərimiz ölkəmizi ləyaqətlə təmsil edərək böyük uğura imza atdılar. Sonrakı beynəlxalq səviyyəli görüş isə Budapeştdə keçirildi. Macarıstanda keçirilmiş Avropa çempionatında güləşçilərimiz bir daha xalqımızı sevindirmiş, Vətənə böyük qələbə ilə qayıtmışlar. 16 medal qazanmış idmançılar bir daha Azərbaycanın idman şöhrətini yüksəklərə qaldırdılar.

Avropa çempionatında qazanılan medallardan biri qadın idmançımızın payına düşür. Digər medallara isə sərbəst güləş və yunan-Roma güləşi üzrə komandamızın kişi üzvləri sahib olublar. Nəticədə, həm sərbəst güləş, həm də yunan-Roma güləşi üzrə komandalarımız Avropa birinciliyini təmin ediblər.

Bu münasibətlə Azərbaycan Prezidenti İlham Əliyev aprelin 8-də Macarıstanda keçirilmiş güləş üzrə Avropa çempionatında iştirak edən Azərbaycan millisinin üzvləri ilə görüşdə deyib: "Vətənpərvərliyi daha da gücləndirən amillərdən biri, əlbəttə ki, tarixi-hərbi Zəfərimizdir və eyni zamanda idman uğurlarımızdır".

Cənab Prezident Azərbaycanın hər bir sahədə nümunə olduğunu önə çəkərək bildirib ki, tarixi Zəfərimiz bizi daha möhtəşəm uğurlara səsləyir: "İki ildən sonra Parisdə Yay Olimpiya Oyunları keçiriləcək. Gələcək yarışlarda da Azərbaycan qalib olacaq. Hazırda işğaldan azad edilmiş ərazilərimizdə dalğalanmasından qürur duyduğumuz üçrəngli bayrağımız yüksəklərə qalxacaq".

Azərbaycan gəncliyinin sahib olduğu ən vacib xüsusiyyətlərdən biri onun hərbi-vətənpərvərlik ruhunun yüksək səviyyədə olmasıdır. Hamıya bəllidir ki, Ermənistanın ölkəmizin suverenliyinə, ərazi bütövlüyünə qarşı təcavüzünün qarşısının alınmasında Azərbaycanın vətənpərvər gəncləri öndə olublar. Zaman keçdikcə gənc nəsildə vətənpərvərlik, milli qürur hissləri daha da güclənir.

Tarixi torpaqlarımızın Ermənistan silahlı qüvvələrinin işğalından azad olunması üçün 2020-ci il sentyabrın 27-dən başlanan 44 günlük Vətən müharibəsində də Azərbaycan gəncləri misli görülməmiş qəhrəmanlıq dastanı yazdı, adını tariximizin şanlı səhifələrinə əbədi həkk etdi.

Belə ki, Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə ordumuzun qüdrəti və qətiyyəti nəticəsində 30 ilə yaxın bir müddətdə Ermənistanın işğalı altında olan torpaqlarımızı işğaldan azad etdik. Bununla da beynəlxalq hüquqla təsdiqlənən ərazi bütövlüyümüz tarixi torpaqlarımızın azadlığı ilə bütövləşdi, bərpa olundu. Azərbaycan dövləti və xalqı, xüsusilə döyüşdə iştirak edən gənclərimiz dünyaya öz gücünü, vətənsevərliyini, qətiyyətini və cəsarətini bir daha nümayiş etdirdi. Hər bir azərbaycanlı üçün qürur və iftixar tariximiz olan 44 günlük Vətən müharibəsi zamanı dövlət-xalq-ordu birliyinin, həmrəyliyinin nə qədər əhəmiyyətli olduğunun şahidi olduq. Bu Vətən savaşında düşmən üzərində parlaq qələbəmizin əsas səbəbkarları içərisində Azərbaycan gəncliyi xüsusilə fərqləndi.

Dövlət başçısı, Ali Baş Komandan İlham Əliyevin tarixi Şuşa şəhərinə səfəri zamanı səsləndirdiyi fikirlər bütün xalqımız üçün olduqca əhəmiyyətlidir. Xüsusilə yeni yetişən gənc nəslin ünvanına səsləndirilən fikirlər Vətən müharibəsinin qalibiyyətində gənc əsgər və zabitlərimizin qəhrəmanlığını bir daha sübut etmiş olur. Prezidentin fikirlərinə istinad edərək demək olar ki, həqiqətən də son 18 ildə ölkəmizdə yetişməkdə olan gənc nəsil öz savadı, intellektual hazırlığı, dünyagörüşü, cəsarəti, ən əsası isə dövlətinə, Vətəninə və millətinə bağlılığı ilə əsl örnəkdir. Bu mənada, döyüşdəki zəfərimiz də məhz hazırlıqlı, yüksək peşəkar, təhsilli əsgər və zabitlərimizin sayəsində qazanıldı. Vətən müharibəsi zamanı Qarabağın Azərbaycan gəncliyi üçün nə qədər əvəzedilməz olduğunu bütün dünya gördü.

Bu gün xalqımız Vətən müharibəsində qazandığımız qələbədə zəhməti olan bütün gənclərimizlə qürur duyur, onlar hər zaman bizim üçün əsl qəhrəmanlıq nümunəsidir.

**Z.ABDULLAYEVA,**
**"Respublika".**